## Mexatronika və robototexnika mühəndisliyi

Bu ixtisasın əsas istiqamətlərindən biri robotlar və robototexniki sistemlərlə bağlıdır. Buraya sənaye robotları, mobil robotlar,  səhiyyə robotları, kənd təsərrüfatı robotları, hərbi təyinatlı robotlar, məişət robotları və s. aiddir. Karyera baxımından gələcəyin ixtisası olan mexatronika və robototexnika mühəndisliyi ixtisası mexaniki baza strukturuna malik olan texniki qurğuların mövcud olduğu istənilən sahədə çalışmaq imkanı yaradır.

## Proseslərin avtomatlaşdırılması mühəndisliyi

Bu ixtisas müasir istehsalın və texnoloji proseslərin yüksək dərəcədə avtomatlaşdırılması və bu avtomatlaşdırılma prosesində tətbiq olunan texniki vasitə, sistem və qurğuların layihələndirilməsi, istehsalı, texniki istismarı üzrə mütəxəssis hazırlığını nəzərdə tutur.
İxtisası bitirənlər əldə etdikləri bilik, bacarıq və vərdişlər nəticəsində maşınqayırma, energetika, nəqliyyat və digər sahələrdə yüksək ixtisaslı mutəxəssislər kimi çalışa bilərlər.